*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 16 mart 2019-cu il № 21 (2338) Qiyməti 30 qəpik

# "Ermənistan hökumətinin danışıqların formatını dəyişməyə cəhd etməsi qəbuledilməzdir"

## Azərbaycan Prezidenti İlham Əliyev VII Qlobal Bakı Forumunun açılışında iştirak edib

*Martın 14-də Azərbaycanın paytaxtında Prezident İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə VII Qlobal Bakı Forumu işə başlayıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.*

Martın 16-dək davam edəcək VII Qlobal Bakı Forumunun işində 55 ölkədən 500-dən çox nümayəndə iştirak edir. "Dünyanın yeni xarici siyasəti" mövzusunda keçirilən Foruma hazırda fəaliyyətdə olan 5 prezident, 1 baş nazir, 2 baş nazirin müavini, 42 sabiq dövlət başçısı və baş nazirlər, çoxsaylı analitiklər, jurnalistlər, gənc liderlər toplaşıb. Forumda 10 müxtəlif sessiya zamanı iştirakçılar tərəfindən qlobal və regional əhəmiyyət daşıyan məsələlər müzakirə ediləcək. Dünyada mühüm beynəlxalq platformaya çevrilən Qlobal Bakı Forumu çərçivəsində beynəlxalq əhəmiyyət daşıyan məsələlər ətrafında fikir mübadiləsi aparılacaq. Bu mövzular arasında "Qlobal siyasətin dəyişməsində böyük güclərin rolu", "Davamlı inkişaf çağırışları", "Təhlükəsizlik naminə Orta Şərq əməkdaşlığı", "Müasir qərarların qəbul edilməsində elm və mədəniyyətin rolu" və digərləri var. Forumun əsas panel iclaslarından biri gənc liderlərin qlobal siyasətdə roluna həsr olunacaq.

Yeddinci Qlobal Bakı Forumunu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin açaraq Forumun əhəmiyyətini vurğuladı. Dünyada sabitliyin olmadığı bir vaxtda planetimizi narahat edən mühüm məsələləri müzakirə etmək imkanı baxımından Bakı Forumunun çox vacib tədbir olduğunu deyən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri sözü Azərbaycan Prezidenti İlham Əliyevə verdi.



Azərbaycan Prezidenti İlham Əliyev Forumda nitq söylədi.

Dövlətimizin başçısı Forumun dünyada cərəyan edən vacib prosesləri müzakirə etmək üçün mühüm beynəlxalq platformaya çevrildiyini vurğuladı. Forumda dünyanın nəhəng intellektual potensialının cəmləşdiyini deyən Prezident İlham Əliyev bunun tədbirin miqyasını təcəssüm etdirdiyini, Bakı Forumunun beynəlxalq aləmdə misilsiz yeri olduğunu diqqətə çatdırdı.

Azərbaycanın xarici siyasətindən danışan dövlətimizin başçısı bildirdi ki, bu, proqnozlaşdırıla bilən, müstəqil və milli maraqlara əsaslanan, tərəfdaşlıq, qarşılıqlı əməkdaşlıq, regionda sabitliyə yönələn siyasətdir. "Biz ənənəvi tərəfdaşlarla münasibətlərimizi daha da möhkəmləndirmişik, eyni zamanda yeni dostlar əldə edərək yeni körpülər qurmuşuq", - deyən Prezident İlham Əliyev Azərbaycanın qarşılıqlı hörmətə əsaslanan səmərəli əməkdaşlıq mühiti yarada bildiyini, nəqliyyat, enerji təhlükəsizliyi, ticarət və sərmayə qoyuluşu sahələrində əməkdaşlıq qurduğunu diqqətə çatdırdı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və bu münaqişənin nəticələri barədə ətraflı danışan Azərbaycan Prezidenti bir milyondan çox qaçqın və məcburi köçkünün bu gün də bu işğalın nəticələrindən əziyyət çəkdiyini, xalqımıza qarşı etnik təmizləmə aparıldığını, tarixi abidələrimizin dağıldığını xatırlatdı. Dövlətimizin başçısı bildirdi ki, bu işğal beynəlxalq təşkilatların beynəlxalq hüquqa əsaslanan qətnamələrinin pozulması deməkdir və status-kvo qəbuledilməzdir, onun dəyişdirilməsi üçün isə Ermənistan Azərbaycan ərazilərindən öz qoşunlarını çıxarmalıdır. "Biz görürük ki, Ermənistan hökuməti bu gün danışıqlar formatını dəyişdirməyə cəhd edir. Bu isə qəbuledilməzdir. Beynəlxalq təşkilatlar, ATƏT-in Minsk Qrupunun həmsədrləri də bunu bəyan edirlər", - deyən Prezident İlham Əliyev bu formatın artıq uzun illərdir mövcud olduğunu bildirdi və bunu dəyişdirmək cəhdini danışıqlar prosesini bloklamaq cəhdi kimi səciyyələndirdi. Vurğuladı ki, danışıqlar yalnız danışıqlar xatirinə aparılmamalıdır. Dövlətimizin başçısı beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıqdan danışdı və diqqəti ölkəmizin təşəbbüsü ilə yaradılan və artıq 10 ildir ki, mövcud olan "Bakı Prosesi"nin əhəmiyyətinə yönəltdi, "Bakı Prosesi"nin BMT tərəfindən də dəstəklənən proses olduğunu vurğuladı.

Prezident İlham Əliyev Forum iştirakçılarının diqqətini dünyada sabitliyin bərqərar olması üçün mühüm amil olan multikulturalizmin Azərbaycandakı ənənələrinə də yönəltdi, bu ideyanın dünyada təbliğ edildiyini vurğuladı. "Bu gün Azərbaycan nümayiş etdirir ki, yalnız multikulturalizmin təşviqi ilə dünya irəli gedə, gərginlik azala bilər", - deyən dövlətimizin başçısı Azərbaycanın gənc, müstəqil ölkə olmasına baxmayaraq, beynəlxalq təşkilatların dəstəyini qazandığını bildirdi. Ölkəmizin beynəlxalq təhlükəsizliyə töhfəsini qeyd edən Prezident İlham Əliyev nəqliyyat və enerji layihələrimizdən danışdı, həmin layihələrin beynəlxalq əməkdaşlığın mühüm hissəsi olduğunu dedi, bu istiqamətdə reallaşdırılan layihələrin ölkələri daha da yaxınlaşdırdığını, əməkdaşlıq üçün yeni körpülər saldığını, enerji təhlükəsizliyinə mühüm töhfə verdiyini vurğuladı.

Dövlətimizin başçısı Forumun işinə uğurlar arzuladı.

# Azərbaycan Ordusunda genişmiqyaslı təlimlər keçirilib

*Bu gün Azərbaycan Ordusunda diqqət mərkəzində olan məsələlərdən biri də ordumuzun döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılması və artırılması üçün müxtəlif qoşun növlərinin iştirakı ilə döyüş atışlı irimiqyaslı təlimlərin keçirilməsidir. Yeni yanaşmanın nəticəsidir ki, istənilən səviyyələrdə qərargahlarda, idarəetmə məntəqələrində şəxsi heyətin biliyi, bacarığı, təcrübəsi və vərdişləri təkmilləşdirilir.*



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, martın 11-dən 15-dək Müdafiə nazirinin rəhbərliyi altında genişmiqyaslı təlimlər keçirilib.

Təlimlər bilavasitə döyüş hazırlığının yüksəldilməsinə xidmət edir. Yüksək döyüş hazırlığına malik olan Azərbaycan Ordusunun belə təlimlərdə silahlanmaya daxil edilən silahların, döyüş texnikalarının, qurğuların istismar xüsusiyyətlərinin də mənimsədiyi təsdiqlənir. Bu əminlik şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində də əhəmiyyətli amillər sırasındadır.



Hər təlimin öz mahiyyəti olsa da, başlıca məqsəd ordunun döyüş qabiliyyətinin yüksəldilməsidir və ordumuzda bu, davamlı prosesdir.

10.000 nəfərədək şəxsi heyət, 500-dək tank, zirehli texnika, eləcə də avtomobil və xüsusi texnika, 300-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 20-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunan genişmiqyaslı təlimlərin planına əsasən həyəcan siqnalı ilə qaldırılan qoşunlar, komanda idarəetmə məntəqələri, döyüş və ehtiyat hərbi hissələri əməliyyat təyinatı rayonlarına çıxarılıb.

Qoşunların yerdəyişməsi tələblərə uyğun olaraq gizli və operativ şəkildə həyata keçirilib. Şəxsi heyətin və hərbi texnikanın bütün hərəkəti komendant xidməti tərəfindən tənzimlənib.

Təlimlərdə qoşunlar hücum əməliyyatının hazırlanması, şərti düşmənə bir neçə istiqamətdə zərbə vurulması, onun müdafiəsinin yarılması və qruplaşmalarının darmadağın edilməsi, eləcə də düşmən ərazisinin dərinliyində yerləşən hərbi və strateji obyektlərə raket-artilleriya zərbələrinin endirilməsi tapşırıqlarını yerinə yetirib. Təlim mərkəzləri və ümumqoşun poliqonlarında müasir silah sistemləri və vasitələrinin tətbiqi ilə döyüş atışları, o cümlədən raket buraxılışları praktiki icra olunub.

Genişmiqyaslı təlimlərə cəlb edilən raket və artilleriya qoşunlarının bölmələri marş keçirərək atəş mövqelərini tutublar. Təlimlərin niyyətinə uyğun olaraq ehtiyat atəş mövqelərinə çıxarılan reaktiv artilleriya divizionları qoşunların hücumuna praktiki atəşlə dəstək vermək və şərti düşmən hədəflərinə atəş zərbələrinin endirilməsi üzrə tapşırıqları icra ediblər.

Təlimlərdə iştirak edən döyüş aviasiya vasitələrinin yerdəyişməsi də həyata keçirilib. Döyüşə hazır vəziyyətə gətirilən təyyarə və helikopterlər ehtiyat aerodromlara və meydançalara çıxarılıb.

Döyüş tapşırıqlarının aydınlaşdırılması və vəziyyətin qiymətləndirilməsi məqsədilə real şəraitdə ərazinin kəşfi də aparılıb. Təlimlərə cəlb olunan birlik, birləşmə və digər qoşun növlərinin vəzifəli şəxslərinin məruzələri dinlənilib, təlimdə iştirak edən qoşunların qəbul olunan qərara uyğun tətbiqi üzrə tapşırıqlar dəqiqləşdirilib.

Keçirilən genişmiqyaslı təlimin niyyətinə uyğun olaraq əməliyyat-taktiki raket bölmələri daimi dislokasiya məntəqələrini həyəcan siqnalı ilə tərk edərək təyin edilmiş marşrutlarla marş keçiriblər.

Start mövqelərini tutan bölmələr planlı və plandan kənar şərti düşmən hədəflərinə raket zərbələrinin endirilməsi üzrə döyüş şəraitinə maksimal şərtlərdə tapşırıqları icra ediblər.

Prezident, Ali Baş Komandan İlham Əliyevin, Müdafiə Nazirliyi rəhbərliyinin daim hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərləri ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən amillər sırasındadır. Ali Baş Komandanın və Müdafiə Nazirliyi rəhbərliyinin orduya diqqət və qayğısı ön xətdə xidmət edən şəxsi heyətə mübarizə əzmi aşılayır.

Şəxsi heyətin mənəvi-psixoloji durumu ilə maraqlanmaq, keçirilən genişmiqyaslı təlimləri yaxından izləmək, onların Novruz bayramını təbrik etmək məqsədilə general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Yel çərşənbəsini təlimlərdə iştirak edən hərbi qulluqçularla birgə keçirib, milli-mənəvi dəyərləri yaşadan bu bayram şənliyində iştirak edib, tonqal ətrafında toplaşan əsgər və zabitlərlə həmsöhbət olub.

Görüşdə daima dövlətimizin diqqət və qayğısı ilə əhatə olunduqlarını vurğulayan hərbi qulluqçular, döyüş hazırlığının, sosial-məişət şəraitinin, mənəvi-psixoloji vəziyyətin, döyüş ruhunun yüksək olduğunu və torpaqlarımızın işğaldan azad edilməsi məqsədilə Ali Baş Komandanın döyüş əmrinə hər an hazır olduqlarını bildiriblər.





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, keçirilən genişmiqyaslı təlimlərə rəhbərlik edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti ön xətt bölmələrində olublar.

Müdafiə nazirinə əməliyyat şəraitinin vəziyyəti barədə məruzə edilib. General-polkovnik Zakir Həsənov üzbəüz yerləşən düşmən mövqelərini müşahidə edib və bölmələrin daim döyüşə hazır vəziyyətdə olmasını təmin etmək məqsədilə müvafiq tapşırıqlar verib.

Bölmələrdəki şəraitlə tanış olan Müdafiə naziri şəxsi heyət üçün yeni inşa edilən əsgər yataqxanası, silah otağı, ideoloji otaq, yeməkxana, məişət otağı, hamam, əşya anbarı, eləcə də digər xidməti obyektlərdən ibarət olan yaşayış kompleksinin açılışında iştirak edib.

Görülən işlərlə maraqlanan general-polkovnik Zakir Həsənov hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlərin dövlətimizin diqqət və qayğısı sayəsində daim davam etdirildiyini xüsusi vurğulayıb.

Müdafiə naziri xidmətdə fərqlənən hərbi qulluqçuları mükafatlandırdı və şəxsi heyətlə çay süfrəsi arxasında söhbət aparıb.

Təlimin növbəti mərhələsində qərargahlarda tapşırıqlar aydınlaşdırılıb, vəziyyət qiymətləndirilib, qərarlar qəbul edilib və qoşunlara tapşırıqlar verilib.

Səhra şəraitində ərazidə yaradılmış təlimin komanda idarəetmə məntəqəsində olan general-polkovnik Zakir Həsənov qoşunların döyüş fəaliyyətinin təşkilini yoxlayıb.

Təlim nöqtələrinə baş çəkən Müdafiə naziri döyüş texnikaları, silah-sursat və şəxsi heyətin təlimlərdə iştirakı, eləcə də tapşırıq və sərəncamların dəqiq çatdırılması, icra olunması ilə bağlı müvafiq göstərişlər verib.

Sonda plana əsasən keçirilən genişmiqyaslı təlimlərin döyüş atışlı əsas mərhələsi icra olunub.

Təlimin niyyətinə uyğun olaraq müxtəlif qoşun növləri silah və texnikanın tətbiqi ilə təlim-döyüş tapşırıqlarını məşq ediblər.

Ümumqoşun döyüşünün müasir qaydalarına əməl edilməklə, mürəkkəb relyef şəraitində və şərti düşmənin ehtimal olunan həmlələri nəzərə alınaraq qoşunlar, eləcə də idarəetmə sistemləri qarşılıqlı əlaqədə effektiv fəaliyyət nümayiş etdiriblər.

Poliqonlarda və müasir qurğularla təchiz edilmiş təlim sahələrində bölmələr döyüş atışları və atəşlə manevrlər yerinə yetiriblər.

Əsas diqqət müasir silah və hərbi texnikanın tətbiqi ilə taktiki tapşırıqların yeni üsullarla icrasına yönəldilib.

# Genişmiqyaslı təlimlərin yekununa dair səyyar kollegiya iclası keçirilib






*Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilən genişmiqyaslı təlimlərin yekunlarına dair Müdafiə Nazirliyinin səyyar kollegiya iclası olub.*

Nazirliyin rəhbər heyəti, birlik və birləşmələrin komandir və qərargah rəisləri, o cümlədən məsul zabitlərin iştirak etdiyi iclasda Müdafiə naziri general-polkovnik Zakir Həsənov "Azərbaycan Ordusunun 2019-cu tədris ilinə vəzifələrinin dəqiqləşdirilməsi" mövzusunda məruzə ilə çıxış edib.

Təlimlərin nəticələrini təhlil edən Müdafiə naziri bildirib ki, qarşıya qoyulan vəzifələr tam həcmdə icra olunub və plana uyğun olaraq qoşunlar irimiqyaslı döyüş əməliyyatlarını uğurla yerinə yetiriblər.

Müdafiə naziri qeyd edib ki, təlimlər zamanı idarəetmə orqanları və qoşunların əməliyyat hazırlığı daha da təkmilləşdirilərək yeni səviyyəyə yüksəldilib, qərargahlar qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə icra ediblər.

Nazir komandanlığın təlimə cəlb edilən qoşunları idarəetmə bacarığını və hərbi qulluqçuların döyüş əzmini yüksək qiymətləndirib.

General-polkovnik Zakir Həsənov keçirilən təlimin əhəmiyyətini vurğulayaraq, Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları bir daha kollegiya iştirakçılarının diqqətinə çatdırıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə Bolqarıstan Müdafiə nazirinin görüşü keçirilib



*Martın 13-də Sofiya şəhərində Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovla Bolqarıstan Respublikası Baş nazirinin İctimai Asayiş və Təhlükəsizlik üzrə müavini - Müdafiə naziri Krasimir Karakaçanov arasında görüş keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tərəflər regional təhlükəsizlik problemləri, eləcə də maraq doğuran digər məsələlər barədə geniş fikir mübadiləsi aparıblar.

Görüşdə hərbi, hərbi-texniki sahələrdə əməkdaşlığın inkişafının vacibliyi qeyd edilib və onun genişləndirilməsi istiqamətləri müzakirə olunub.

# MDB iştirakçı dövlətlərin Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin iclası keçirilib

*Martın 14-də Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Moskvada keçirilən MDB-nin üzvü olan dövlətlərin Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin növbəti iclasında iştirak edib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, komitənin iclasında nümayəndə heyətlərinin rəhbərləri MDB çərçivəsində hərbi əməkdaşlığın müxtəlif aspektlərinə dair fikir mübadiləsi aparıblar.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***11 mart 2019-cu il.***

"Naxçıvan Qarnizonu qoşunlarının 2019-cu tədris ilinə uzlaşdırma planı"na əsasən, martın 11-dən Müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordu komandanının rəhbərliyi ilə keçirilən komanda-qərargah təlimi davam edir.

Müxtəlif dərəcəli döyüşə hazır olmaq vəziyyətinə gətirilməsi məqsədilə təlimə cəlb olunan birləşmə və hissələr təlim döyüş həyəcanı siqnalı ilə qaldırılaraq əməliyyat təyinatı rayonuna çıxarılıb.

Qoşunların yerdəyişməsi təlimlərə uyğun olaraq gizli və operativ şəkildə həyata keçirilib.

Martın 12-də döyüşün planlaşdırılması ilə yanaşı, təlimin praktiki fəaliyyətinə cəlb olunan birləşmə və hissələr əraziyə çıxarılıb və ssenariyə uyğun məşq etdirilib. Qoşunların tam komplektləşdirilməsi üçün şəxsi heyətin qəbulu məntəqəsi açılıb, səfərbərlik ehtiyatları və cari çatışmazlığın bərpası üzrə tapşırıqlar yerinə yetirilib.

***15 mart 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şıxlar, Kəngərli, Sarıcalı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Ordu və cəmiyyət*

# Bu birlik Vətən üçündür

*Ordumuzda genişmiqyaslı təlimlər keçirilir. Bu, ordunun döyüş hazırlığının yüksəldilməsində mühüm əhəmiyyətə malikdir. Belə bir vaxtda Şamaxı rayonunda ordu ilə ictimaiyyətin birliyini təmin edən tədbir keçirilib.*

**Ümummilli lider Heydər Əliyev:**

*Xalqla ordunun birliyi həm xalqın qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir. Ona görə də qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir.*



Heydər Əliyev Mərkəzinə toplaşan veteranlar, şəhid ailələrinin üzvləri, ziyalılar, gənclər, qeyri-hökumət təşkilatlarının, idarə və müəssisələrin nümayəndələri əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Şamaxı rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov tədbir iştirakçılarını salamlayaraq bildirib ki, xalqımız builki Novruz bayramını həyatımızın bütün sahələrində qazanılmış uğurlarla qarşılayır. Dövlətimizin inkişaf və tərəqqisi, xalqımızın daha firavan yaşaması üçün aparılan mühüm islahatlar, eləcə də Azərbaycan Ordusunun dünyanın ən güclü orduları sırasında yer alması hər bir şamaxılını da sevindirir. Şamaxılılar dövlətimizin başçısının yürütdüyü məqsədyönlü daxili və xarici siyasəti ürəkdən dəstəkləyirlər. Ölkə rəhbərliyi daim xalqın yanındadır, hər bir vətəndaş bunu görür və yüksək qiymətləndirir. Bir neçə gün əvvəl baş vermiş zəlzələdən dərhal sonra Prezident İlham Əliyevin və Birinci vitse-prezident



Mehriban Əliyevanın bölgəyə gəlmələrinin, təxirəsalınmaz tapşırıqlar vermələrinin, az sonra görülən işlərlə yerində tanış olmaq üçün dövlətimizin başçısının yenidən rayonumuzda olmasının, sakinlərlə səmimi görüşlərinin şahidi olduq.

Tahir Məmmədov ordu quruculuğu məsələlərinə toxunaraq vurğulayıb ki, Azərbaycan Ordusunu nizami ordu kimi formalaşdırmaq ulu öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında ən böyük xidmətlərindəndir. "Bu ordunu daha da qüdrətləndirmək, dünyanın güclü orduları sıralarına çıxarmaq isə müdrik və qətiyyətli Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır. Dövlətimizin başçısının dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Orduda nizam-intizam yüksək səviyyədədir, ruh yüksəkliyi var. Ordumuzun, əsgərlərimizin, zabitlərimizin mənəvi-psixoloji durumu çox müsbətdir. Nəinki orduda, bütün cəmiyyətdə vətənpərvərlik hissi çox yüksəkdir. Bütün cəmiyyət vahid amal uğrunda birləşib. Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında Prezident İlham Əliyev böyük inamla qeyd etdi ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti Vətən uğrunda, torpaq uğrunda canından keçməyə də hazırdır."

Diqqətə çatdırılıb ki, şamaxılılar da Azərbaycan Ordusunun uğurla davam edən genişmiqyaslı təlimlərini diqqətlə izləyirlər. "Azadlıq meydanında keçirilən hərbi paradlarda gördüyümüz ən müasir tank və zirehli texnikalar, artilleriya qurğuları, reaktiv yaylım atəşli sistemlər, müxtəlif təyinatlı aviasiya vasitələri artıq təyinat məntəqələrinə çıxarılıb və hərbçilərimiz təlim meydanlarında əsl döyüş məharəti nümayiş etdirirlər. Biz onlara daha böyük uğurlar diləyir və arzu edirik ki, tezliklə xalqımızı qələbə ilə sevindirsinlər. Şamaxılılar da ordumuzun arxasındadır və onun hər bir zəfərini ürəkdən alqışlayırlar."

Çıxışına ulu öndər Heydər Əliyevin "Xalqla ordunun birliyi həm xalqın qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir. Ona görə də qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir" kəlamını diqqətə çatdırmaqla başlayan Müdafiə Nazirliyinin zabiti, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani bugünkü tədbiri ordu ilə xalqın birliyinin yeni bir nümunəsi kimi dəyərləndirib: "Ali Baş Komandan İlham Əliyevin Prezident kimi fəaliyyətinin prioritet istiqamətlərindən biri olan ordu quruculuğu bu gün daha dinamik inkişaf etməkdədir. Ordumuzun maddi-texniki bazası gündən-günə möhkəmlənir, yeni-yeni silahlar, texnikalar, artilleriya qurğuları, zenit-raket kompleksləri, helikopter və döyüş təyyarələri, hərbi gəmilər alınır. Ordumuz istənilən döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirməyə hazır və qadirdir. Hərbi qulluqçuların sosial müdafiəsi, xidmət, mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində ardıcıl olaraq müvafiq tədbirlər görülür, gənclərimiz hərbi peşələrə böyük maraq göstərir, Vətənə xidmətdən qürur duyurlar. Xalqımız ordumuzla fəxr edir. Əsgər və zabitlərimiz bu münasibəti, bu inamı hiss edir, arxasında duran böyük xalqın birliyindən, ölkə rəhbərliyinin ətrafında sıx birləşməsindən daha da ruhlanır. Ordumuz ona görə güclüdür ki, Prezident İlham Əliyev kimi Ali Baş Komandanımız və arxamızda dağ kimi dayanan mətin xalqımız var".

Abdulla Qurbani genişmiqyaslı təlimlərdən bəhs edərək diqqətə çatdırıb ki, bu təlimlərə 10 minə yaxın şəxsi heyət, 500 tank, zirehli texnika, avtomobil, xüsusi texnika, 300 ədəd müxtəlif çaplı artilleriya qurğusu, reaktiv yaylım atəşli sistemlər, minaatanlar, 20 müxtəlif təyinatlı aviasiya vasitəsi cəlb olunub. Təlimlər Ali Baş Komandanın birbaşa nəzarəti altında, Müdafiə Nazirliyinin rəhbər heyətinin bilavasitə iştirakı ilə uğurla davam etdirilir.

Şamaxı rayon veteranlar təşkilatının sədri Ağarza Bayramov, rayon gənclər və idman idarəsinin sədri Şahmar Hüseynov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin rəisi polkovnik-leytenant Pərviz Feyzullayev, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və



Şəhid Ailələri İctimai Birliyinin rayon filialının sədri, şəhid anası Güllü Babaşova, rayon ağsaqqallar şurasının sədri Mayıl Alcanov, müharibə veteranı Fuad Səbiyev, Azərbaycan Dövlət Pedaqoji Universiteti Şamaxı filialının tələbəsi Azər Niyazov və başqaları çıxışlarında ordumuza dəstək nümayiş etdirib və əli silah tutan hər bir şamaxılının da Qarabağ uğrunda zəfər yürüşündə Azərbaycan əsgərinin yanında olacaqlarını bəyan ediblər.

Şəhidlər unudulmur...

Hər şəhid hər birimizin əzizidir...

Şəhidlərə dövlət səviyyəsində ehtiram var...

Tədbirdə şəhid Taleh Həmidovun ölümündən sonra təltif olunduğu "Hərbi xidmətlərə görə" 3-cü dərəcəli medal ailəsinə təqdim edilib.

Şəhidin atası Saleh Həmidov və anası Qalina Vasilyevna, eləcə də şəhidin vaxtilə təhsil aldığı Qızmeydan kənd tam orta məktəbinin direktoru Nəsimi İsmayılov, kənd icra nümayəndəsi Yekaterina Ukleina şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına, birinci xanım Mehriban Əliyevaya və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Sonda tədbir iştirakçıları Azərbaycan əsgərinə müraciət qəbul ediblər. Müraciətdə deyilir: "Vətən əsgəri, biz inanırıq ki, sən göstərilən etimadı əməli fəaliyyətinlə, Vətənə nümunəvi xidmətinlə, xalqımıza, dövlətimizə sonsuz sədaqətinlə bundan sonra da şərəflə doğruldacaq, təlimlərdə qazandığın peşəkarlıq və məharəti vaxtı gələn zaman döyüş meydanında daha da cəsarətlə nümayiş etdirəcək və xalqımıza böyük qələbənin sevincini yaşadacaqsan".

Tədbir iştirakçıları həmin gün Qızmeydan kəndində olub, şəhidlərimizin məzarlarını ziyarət edib və kənd məktəblilərinin təqdim etdikləri "Şəhidlər ölməz, Vətən bölünməz!", "Ordumuz - Qürurumuz" və "Biz səninləyik, Vətən əsgəri!" adlı ədəbi kompozisiyaları maraqla dinləyiblər.

Heydər Əliyev Mərkəzinə, Qızmeydan kənd tam orta məktəbinə və tədbir iştirakçılarına Müdafiə Nazirliyinin adından vətənpərvərlik mövzusunda yazılmış kitablar hədiyyə edilib.

Bir daha təsdiqlənib ki, belə tədbirlər gərəklidir, Vətən üçündür.

**"Azərbaycan Ordusu"**

# “Əsgərə xatirə kitabı” xoş təəssüratlarla yazılır

*"Əsgərə xatirə kitabı" layihəsi çərçivəsində 2 saylı Həbib bəy Mahmudbəyov adına Texniki-Humanitar liseyin və Alpaqut Federasiyasının müəllim, şagird kollektivləri, habelə valideynlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə yenidən qurulan Cocuq Mərcanlı kəndində və "N" hərbi hissəsində oldular.*





Tədbir iştirakçıları Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbinin foyesində ümummilli lider Heydər Əliyevin büstü önündə toplaşdılar, dahi rəhbərin məcburi köçkünlərə diqqət və qayğısını əks etdirən fotostendə baxdılar. Məktəbin şagirdləri Vətənə, vətənpərvərliyə və şəhid qəhrəmanlarımıza həsr olunan şeirlərlə qonaqları salamladılar.

Məktəbin direktoru Zamin Həziyev bildirdi ki, aprel döyüşləri nəticəsində ordumuz minlərlə hektar sahəni, eyni zamanda geniş ərazini nəzarətdə saxlamağa imkan verən Lələtəpə yüksəkliyini düşməndən azad etdi. “Bu isə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində təhlükəsiz həyatın bərpasına əlverişli şərait yaratdı. Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamına əsasən, qısa müddət ərzində təmir-tikinti işləri aparılaraq, kənd sakinlərinin öz yurdlarına qayıtması təmin olundu.” Direktor onu da qeyd etdi ki, yenidən tikilən orta məktəbin binası müasir standartlara cavab verir. "Sinif otaqları, informatika, gənclərin çağırışaqədərki hazırlıq kabinetləri, müəllimlər otağı lazımi inventar və avadanlıqlarla, istilik sistemi və internetlə təchiz edilib. Məktəbin həyətində qazanxana, voleybol və basketbol meydançaları yaradılıb, yaşıllıqlar salınıb. Bu istiqamətdə görülən işlər gələcəkdə təhsil sahəsində əldə olunacaq nailiyyətlərə müsbət təsir göstərəcək".

Sonra qonaqlar Azərbaycan və Şərq memarlığının nadir incilərindən sayılan tarixi Şuşa məscidinin bənzəri olan məscidi ziyarət etdilər. Burada yaradılan şəraitlə tanış oldular.

Tədbir iştirakçıları 2016-cı ilin aprelində düşmən təxribatlarının qarşısını alan zaman şəhid olan qəhrəmanlarımızın valideynləri ilə görüşdülər, onlara başsağlığı verərək, övladlarının qəhrəmanlığı qarşısında baş əydiklərini, Vətən uğrunda şəhidlik zirvəsinə ucalanların əbədi olaraq xalqımızın yaddaşında qalacaqlarını vurğuladılar. Həmçinin qeyd olundu ki, aprel döyüşləri Azərbaycan Ordusunun qüdrətini, Azərbaycan xalqının birliyini göstərdi. Sonra tədbir iştirakçıları Cocuq Mərcanlı kəndində aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək,



önünə gül dəstələri qoydular.

Qonaqlar, şəhid ailələri, qazilər, veteranlar, düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində bayram şənliyində də iştirak etdilər.

Hərbi hissədə əvvəlcə əsgərlərlə birgə bayram tonqalı alovlandırıldı. Tonqal ətrafında Füzuli Dövlət Dram teatrının yaradıcı kollektivinin hazırladığı səhnəciklər, Novruzun atributları olan Kosa və Keçəlin məzəli zarafatları əsgərlərimizdə xoş əhval-ruhiyyə yaratdı.

Hərbi hissənin zabiti Elşad Əbilov qonaqları salamlayaraq, tezliklə bundan böyük tonqalların işğaldan azad edəcəyimiz torpaqlarımızda qalanmasını arzu edərək bildirdi ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə gündən-günə güclənən Azərbaycan Ordusu Vətənimizin keşiyində ayıq-sayıq dayanaraq öz müqəddəs missiyasını uğurla yerinə yetirir. Torpaqlarımızın keşiyində dayanan şəxsi heyət həmişə ölkə rəhbərliyinin diqqət mərkəzindədir, - deyə zabit çıxışına davam etdi. - Əsgərlərimizin məişət şəraitinin daha da yaxşılaşdırılması üçün ardıcıl tədbirlər həyata keçirilir. Əminliklə deyə bilərəm ki, bu gün ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir. Bunu aprel döyüşləri də təsdiqlədi. Qısa müddət ərzində əldə olunan nailiyyətlər bütün dünyaya bir daha sübut etdi ki, ordumuzun arxasında xalq, xalqımızın arxasında isə ordu dayanır. Bu birlik sarsılmazdır. Sizlərin də burada bizlərlə bərabər olmağınız bunu bir daha təsdiq edir. Keçirilən bu cür tədbirlər əsgərlərimizin mənəvi-psixoloji hazırlığını daha da yüksəldir, onların mübarizə əzmini möhkəmləndirir. Bu gün ordu sıralarında xidmət edən hər bir Azərbaycan zabiti, giziri və əsgəri Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə hər an işğal altında olan torpaqlarımızı azad etməyə hazırdır.

2 saylı Həbib bəy Mahmudbəyov adına Texniki-Humanitar liseyinin direktor müavini, Azərbaycan Alpaqut Federasiyasının vitse-prezidenti Nuranə Şıxəliyeva düşmənlə təmas xəttində hərbi xidmət keçən əsgərlərimizi qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik etdi. Onların nə qədər məsuliyyətli və şərəfli vəzifənin öhdəsindən gəldiklərinin hər bir azərbaycanlıya məlum olduğunu bildirdi. "Vətən - anadır. Buna görə də həmişə bizim üçün müqəddəsdir. Bu gün düşmənlə təmas xəttində xidmət edən əsgərlərimiz Vətənimizi göz bəbəyi kimi qoruyurlar. Hər dəfə hərbi hissələrdə olanda bunun şahidi oluruq. Ordumuzun sıralarında belə vətənpərvər oğullarımızın olması bizi çox sevindirir. Bir pedaqoq kimi deyə bilərəm ki, hərbçilərimizlə canlı ünsiyyətdə olmaq gənclərimizdə hərbi vətənpərvərlik hisslərinin artırılmasında mühüm rol oynayır. Ürəyi Vətən sevgisi ilə döyünən igidlərimizlə söhbət etmək yeniyetmələrdə Vətənə bağlılığın artırılmasında və Vətənin, torpağın müdafiəsində durmaq kimi hisslərinin inkişaf etdirilməsində böyük əhəmiyyətə malikdir. Gənc yaşlarından Vətən torpaqları üzərində qazılan səngərləri görəndə, başa düşürlər ki, müharibə hələ bitməyib. Bu müharibə torpaqlarımız işğaldan azad ediləndən sonra başa çatacaq. Bunun üçün hər birimiz üzərimizə düşən vəzifənin öhdəsindən layiqincə gəlməliyik. Siz hərbçilər düşmənin bütün hərəkətini gecəgündüz müşahidə edirsiniz, onu daim nəzarətdə saxlayırsınız, biz Vətənimizə layiqli vətəndaş formalaşdırırıq. Arzu edirəm ki, gələcək nəsil ərazi bütövlüyümüzün bərpa olunmuş sərhədlərində xidmət etsin."

- Bu gün ölkəmizdə bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da mühüm addımlar atılır. Ordumuzun qüdrəti və ölkəmizdə xalq-ordu birliyinin möhkəmliyi gücümüzə güc qatır. Hesab edirəm ki, belə tədbirlərin keçirilməsi nəticəsində gənclərimizdə Vətənə sevgi, dövlət atributlarına ehtiram formalaşır. Bu gün şagirdlər Cocuq Mərcanlıda oldular, şəhidlərimizin xatirəsinə ucaldılmış abidəni ziyarət etdilər, əsgərlərimizlə söhbətləşdilər, onların məişət şəraiti ilə yaxından tanış oldular. İnanıram ki, bu gün onların həyatında silinməz izlər qoyacaq. Onlar Vətənimizi qorumaq üçün canlarından keçən oğullarımızın şəhidlik zirvəsinə ucaldıqlarını gördülər. Vətən torpaqlarının nə qədər əziz olduğunu anladılar. Bildilər ki, torpaqlarımız işğaldan azad olunmayınca, onların ruhu rahatlıq tapmayacaq. Biz də şəhidlərimizin qoyduğu bu əmanəti qorumalıyıq. Qoy dünya ictimaiyyəti bilsin ki, biz münaqişənin sülh yolu ilə həll olunmasının tərəfdarıyıq. Əks halda güc tətbiq etməklə torpaqlarımızı azad edəcəyik. Bu müqəddəs yolda idmançılarımız da ordu sıralarına qatılmağa hazırdırlar. Bu gün burada Vətənin keşiyində dayanan igidlərimizlə bir sırada olmağımla qürur duyuram. Hər birinizi qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edərək, xidmətinizdə uğurlar arzulayıram, - bu sözləri Azərbaycan Kunq-fu Federasiyasının (AKF) vitse-prezidenti Tural Alışanlı dedi.

Çıxışlardan sonra bir sıra hərbi qulluqçular və qonaqlar qiymətli hədiyyələrlə təltif olundular. Tədbir Alpaqut Federasiyasının hazırladığı nümunəvi çıxışların və konsert proqramının nümayişi ilə davam etdi.

Sonda tədbir iştirakçıları xatirə şəkli çəkdirdilər.

**Baş leytenant
Ruslan HƏSƏNZADƏ,
"Azərbaycan Ordusu",
fotolar
çavuş
Vüsal HƏMİDOVUNDUR**

*Təlim*

# Tankçılarımız döyüşə hər an hazırdırlar



Ön xətdə yerləşən tank taborunun şəxsi heyəti əsl dəmir atlı cəngavərdirlər. Onların aprel döyüşlərində, irimiqyaslı təlimlərdə, beynəlxalq yarışlarda göstərdikləri şəxsi igidlik nümunələri taborun döyüş yolunu zənginləşdirən məqamlardır. Zabit Rasim Məmmədov xüsusilə taborun bir bölməsi haqqında qürurla danışdı: "Bölmənin şəxsi heyəti Silahlı Qüvvələrimizdə keçirilən tank biatlonunda dəfələrlə birinci yeri qazanıb. Heyət nəfərlərinin hər biri peşəsini dərindən mənimsəyən hərbçidir. Təcrübəli hərbçilərin belə bir hikmətli kəlamı var - tankçılara heç vaxt qəmgin olmaq yaraşmır, onlar həmişə şən, nikbin olmağa borcludurlar."

"İlkin anlayışda bu fikir adi bir mənanı ifadə etsə də, hərbi-taktiki baxımdan böyük əhəmiyyət daşıyan müdrik kəlmə bəs nəyi özündə əks etdirir?" sualımızı təcrübəli zabit belə cavablandırdı: "Kiçik bir döyüş heyətinin tərkibində xidmət göstərmək nə qədər sadə görünsə də, məsuliyyət mənasında çox vacib və dəyərli bir xidmət nümunəsidir. Cəmi üçdörd nəfərdən ibarət olan bir kollektiv, əlbəttə, şən yaşamağa borcludur. Əgər onlardan biri bu və ya digər mənada etibarını itirsə, bir-birinə kömək etmək iqtidarına malik olmasa, yoldaşlıq münasibətlərində qarşılıqlı hörmət hissi hökm sürməsə, nəhayət, ürəklərində kədər, qəm notları səslənsə, sizcə döyüş əmrini birgə reallaşdıra bilərlərmi? Əlbəttə ki, yox! Çox yaxşı haldır ki, heyətə daxil olan hər bir tankçı bu həqiqəti dərindən dərk edərək xidmətini aparır, döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirə bilir".

Qeyd etdiyimiz kimi, bölmənin hər bir üzvü əsl tankçıdır. Bu gerçəkliyi təlim-məşq zamanı bir daha yəqinləşdirdik. Mövzu xəritəsiz ərazidə oriyentirlərin seçilməsi və hədəflərin göstərilməsi ilə bağlı olsa da, onlar öz döyüşçülük məharətini, lazımı bilgilərini nümayiş etdirmək məqsədilə müxtəlif tapşırıqları yerinə yetirdilər. Aprel döyüşlərində strateji əhəmiyyətli yüksəkliyin - Lələtəpənin alınmasında iştirak edən gizir Elməddin Zahidov zirehli gövdəyə bərkidilmiş dəzgahlı pulemyotu söküb şəxsi heyətə izah etdi. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Mehdi İbadov və Yusif Qasımov mövzu ilə bağlı sualları cavablandırdılar. Nişanalma qurğuları, müşahidə cihazları söküldü və tankçılar verilən tapşırıqları layiqincə yerinə yetirdilər. Mühərrik qurğusu ilə bağlı suallar əsl imtahan idi. Axı imtahan heç vaxt asan olmur. Şahidi olduq ki, tankçılarımız imtahanın özəl çətinliklərini asanlıqla dəf etməyi bacardılar. Eyni zamanda bəzi təlim çalışmalarının təkrar yerinə yetirilməsi tankçılarımızda zəruri bilikləri daha da möhkəmləndirdi.

Sonra məşğələnin vəzifələr üzrə bölünmüş digər suallarını aprel döyüşlərində iştirak edən tank komandiri gizir Vüsal Omarov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Fərrux Rzayev, Kamran Məmmədzadə yüksək peşəkarlıqla izah etdilər. Onlardan biri sadə üsullarla şərti ərazidə məsafələrin uzunluğunu müəyyənləşdirdi. Digəri gözlə, addımlarla, həmçinin vaxt və hərəkət sürətinə görə məsafəni təyin etdi. O birisi isə "kompas nədir" sualına aydınlıq gətirdi. Beləliklə, daim döyüş hazırlıqlarını artıran tankçılarımız nəzərdə tutulmuş məşqləri yekunlaşdırdılar.

Fərrux Rzayev və Kamran Məmmədzadə bildirdilər ki, heyət bütün təlim tapşırıqlarını hər dəfə belə yüksək göstəricilərlə yerinə yetirir. "Ona görə ki, hər kəs öz vəzifəsini yaxşı bilir. Komandirimiz peşəkardır. Bəzən hər hansı çətinliyə düşəndə komandir köməyimizə tez çatır. Tankçı üçün ən vacib amil olan möhkəm ordu dostluğu yaratmışıq. Bir-birimizdən heç vaxt inciməmişik. Necə deyərlər, bir "dəmir ev"in içində döyüşçü həyatı sürənlərin dostluğu əbədi dostluqdur."

Bölmənin baş texniki baş gizir Məftun İbrahimov tank biatlonu beynəlxalq hərbi yarışlarda üç ildir ki, iştirak etdiyini və fərdi olaraq birincilik qazandığını, eyni zamanda Rusiya Federasiyasının Müdafiə naziri tərəfindən "Dostluq" medalı ilə təltif olunduğunu bildirdi.

Təbiidir ki, haqqında söhbət açdığımız və təlim çalışmalarını müşahidə etdiyimiz bölmə öz məsuliyyətinin böyüklüyünü dərindən dərk etməsəydi, uğurlu nəticəni də qazana bilməyəcəkdi. Bu gün hər bir heyət nəfəri çox gözəl anlayır ki, sabah Ali Baş Komandanın "İrəli" əmri verilərsə, erməni işğalçılarının müdafiə xəttini məhz bu dəmir atlı cəngavərlər darmadağın edəcəklər.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Rəşad ƏMRAHOVUNDUR**



*Fiziki hazırlıq*

# "İdman sağlamlığın cövhəridir"

Əsgərlərin gündəlik fəaliyyətindən danışdıqda fiziki hazırlığı mütləq qeyd etməliyik. Fiziki hazırlıq həm döyüş qabiliyyətinin artırılmasına, həm də sağlamlığın möhkəmləndirilməsinə istiqamətlənmiş mühüm fəaliyyət prosesidir. Əsgərlər idmanla nə qədər çox məşğul olsalar, o qədər fiziki cəhətdən möhkəm, güclü və sağlam olarlar. Yüksək fiziki hazırlıq onların döyüş qabiliyyətinə də müsbət təsir göstərir. İdmanla məşğul olan hərbi qulluqçu möhkəm, dözümlü, yüksək əhval-ruhiyyədə və özgüvəndə olur. Bu göstəricilərə malik əsgərlər döyüş tapşırıqlarını daha çevik və dəqiq yerinə yetirirlər. Buna görə də əsgərlərin bacarıqlı döyüşçü kimi formalaşması prosesində idmanla məşğul olmaları mühüm yer tutur. Bütün hərbi hissələrdə müasir idman avadanlıqları ilə təchiz olunmuş idman zalları, idman şəhərcikləri fəaliyyət göstərir. Fiziki hazırlığın mahiyyətini yaxşı başa düşən əsgərlər də bədən tərbiyəsinə xüsusi diqqət göstərir, yüksək həvəslə idmanla məşğul olurlar.

"N" hərbi hissəsinin ön xətt bölməsində digər fəaliyyətlərlə yanaşı, fiziki hazırlıq məşğələsinin də yüksək səviyyədə təşkilinin şahidi olduq. Şəxsi heyət leytenant Cavid Hüseynovun rəhbərliyi ilə idman şəhərciyinin qarşısında təyin olunmuş formada düzüldülər. İsinmə-gərilmə hərəkətləri icra olunduqdan sonra əsgərlər turnikdə, paralel qollarda və digər alətlərdə bədən tərbiyəsi ilə məşğul oldular. Onların hər biri idman hərəkətlərini böyük həvəs və çevikliklə yerinə yetirirdi. Göz oxşayan mənzərə şəxsi heyətin fiziki hazırlığının yetərincə olduğuna əminlik yaradırdı. "Əsgərlərin gündəlik fəaliyyətini müəyyənləşdirən günün nizam qaydasının ayrılmaz və önəmli hissələrindən biri də fiziki hazırlıq saatlarıdır. Hər gün təyin olunan vaxtda, müəyyən edilən qaydada icra edilən idman hərəkətləri ilə məşğul olmaq, bizi fiziki cəhətdən möhkəm, güclü və sağlam edir. İdman tədbirləri zamanı əldə edilən güc şəxsi heyətin döyüş qabiliyyətinə də müsbət təsir göstərir. Həm də ruh yüksəkliyi aşılayır. Belə ki, bədən tərbiyəsi orqanizmi fiziki cəhətdən gücləndirdiyi kimi, mənəvi sağlamlıq, möhkəm iradə də aşılayır. Bu göstəricilər isə torpaqlarımızı işğaldan azad etmək üçün hər an "İrəli" əmri gözləyən hər bir hərbi qulluqçu üçün vacib şərtdir", - zabit dedi.



İdman hərəkətlərini bacarıqla yerinə yetirən əsgərlərlə də həmsöhbət olduq. Əsgər Alim Məmmədov dedi ki, idman sağlamlığın cövhəridir. İsmayıllı rayonunda dünyaya göz açan Alim uşaq yaşlarından idmana maraq göstərdiyini bildirdi. "Mülki həyatımda da idmanla məşğul olmaq ən sevimli məşğuliyyətim idi. Vətən müdafiəçisi kimi isə fiziki güc daha vacibdir. Yaxşı anlayıram ki, sağlam və güclü olsam, verilən tapşırıqları daha cəld yerinə yetirəcək, döyüş meydanında sona qədər düşmənə qarşı mübarizə apara biləcəyəm. Ona görə də fiziki hazırlığımı daim artırıb, torpaqlarımızın azadlığı uğrunda savaşdan qalib əsgər kimi ayrılacağam".

Əsgər Rəşad Tanrıverdiyev də fiziki məşğələnin döyüş hazırlığının ayrılmaz və vacib hissəsi olduğunu bildirdi: "Qarşımızda duran ən birinci vəzifəmiz torpaqlarımızın işğaldan azad olunmasıdır. Hər an Ali Baş Komandanımızın döyüş əmri ilə hücuma keçməyə hazırıq. Hücum döyüşünün mərhələlərindən biri də əlbəyaxa döyüşdür ki, bu da yüksək çeviklik və fiziki güc tələb edir. Buna görə də idmanın müqəddəs vəzifəmiz üçün vacibliyini yaxşı başa düşür, idmanla mütəmadi məşğul olur, çevikliyimizi, gücümüzü artırırıq ki, düşmənlə qarşı-qarşıya gəldikdə onu tez və asan məhv edək".

Əsgərlər İbrahim Alıyevin, Elzamin İmanovun, Əli Ələkbərovun, Əbdülrəhman Rzayevin və İrfan Qədirovun da idmana həvəs göstərdiyini görürəm. Onların turnikdə, paralel qollarda, sonra isə digər idman alətlərində məşqlərini bacarıqla yerinə yetirdiklərini izləyirəm. Onları izlədikcə qəlbimə bir inam hakim olur - sağlam, qüvvətli, yüksək döyüş hazırlıqlı və ürəyi Vətən sevgisi ilə döyünən əsgərlərimiz düşmən üzərində növbəti qələbələri qazanacaqlar.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Hərbi Dəniz Qüvvələrində Novruz bayramı



*Müdafiə Nazirliyi və Bakı şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsində Novruz bayramı münasibəti ilə təntənəli bayram tədbiri keçirildi.*

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri giriş sözü ilə açan hərbi hissənin zabiti Natiq Bağırov bildirdi ki, Novruz bayramının tarixi kökləri çox qədimdir və ölkəmizin bütün bölgələrində böyük təntənə ilə qeyd olunur. "Novruz xalqımızın mədəniyyətini, milli-mənəvi dəyərlərini özündə əks etdirən, dünyaya tanıtdıran qədim el bayramıdır. Tarixən milli düşüncə tərzinin və məfkurəsinin formalaşmasında, insanların yüksək əxlaqi dəyər və normalar çərçivəsində yaşamasında böyük rol oynayan Novruz bayramı paklığı, mühüm insani dəyərləri tərənnüm edir. Novruz əsrlər boyu həm də insanları işıqlı sabahlara, xoşbəxt gələcəyə ruhlandırıb. Bu bayram sülh və əmin-amanlığın təmin olunması, insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təmələr yaradıb. Azərbaycana rəhbərliyinin birinci dövründə xalqımızın ümummilli lideri Heydər Əliyev sovet hakimiyyətinin qadağalarına baxmayaraq, milli ruhun yüksəlişinə təkan verən amillərə xüsusi hörmətlə yanaşmışdı. Milli adət-ənənələrimizə, o cümlədən Novruz bayramına yüksək qiymət verən ulu öndər Heydər Əliyev bu bayram haqqında demişdi: "Novruz xalqımızın əsrlərdən bəri qoruyub saxladığı və bütün dövrlərdə həmişə əziz tutduğu bayramlardan biridir. Onun tarixi də Azərbaycan xalqının tarixi kimi keşməkeşli, enişli-yoxuşlu olmuşdur. Bu ulu bayramın müstəqil respublikamızda dövlət səviyyəsində qeyd edilməsi öz milli köklərimizə, adətənənələrimizə, tarixi keçmişimizə dərin ehtiram bəslədiyimizi və sarsılmaz tellərlə bağlı olduğumuzu nümayiş etdirir". Bir daha hər birinizi təbrik edir, hər bir ailəyə bol ruzi, xoşbəxtlik və səadət arzulayıram".



İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin dövlət qulluqçusu Zümrüd Səmədova bildirdi ki, Novruz bayramını hər il böyük təntənə ilə qeyd edirik. "Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan Novruz insanlar arasında birliyin və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi mənəvi dəyərlər yaratmışdır. Novruz ruh yüksəkliyi, əmək coşğunluğu, torpağa, insana məhəbbət bayramıdır. Belə gözəl bayramda mən də sizləri təbrik edirəm, hər birinizə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə günbəgün inkişaf edən ölkəmizdə firavan həyat, uzun ömür, cansağlığı, ailə səadəti arzulayıram".

Tədbir mədəniyyət və incəsənət nümayəndələrinin rəngarəng ifaları və "Xəzri" rəqs ansamblının bir-birindən maraqlı müxtəlif rəqs nömrələri ilə davam etdi.

Sonra möhtəşəm Novruz tonqalı ətrafına yığışanların könüllərini coşdurdu.



**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş ərazilərimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində yerlibazlıq səbəbindən baş verən hadisələrin sayı artmaqdadır və bu yönümdə davalar səngimək bilmir.

Baş verən növbəti hadisəni araşdıran Samvel Bağdasaryanın məruzəsinə əsasən, Martunidə yerləşdirilən alayın döyüş postunda qarabağlı erməni hərbçi ilə Yerevandan olan əsgər arasında başlayan mübahisə davaya çevrilib.

Dava zamanı onu döyən və təhqir edən hərbi qulluqçuya gücü çatmayan əsgər Varazat Zakaryan odlu silahla özünə qəsd edib.

Xəsarət alan hərbi qulluqçunun vəziyyəti barədə məlumat gizlədilsə də, faktla bağlı araşdırma davam edir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində baş verən biabırçı hal ciddi qalmaqala səbəb olub.

Taborlardan birində əsgərlər arasında kütləvi dəri-zöhrəvi xəstəliyə yoluxma aşkar edilib. Aparılan sorğu nəticəsində xəstəliyə yoluxan hərbi qulluqçuların hamısının taborda işləyən 1996-cı il təvəllüdlü Laura Sardaryanla cinsi əlaqədə olduğu məlum olub.

Hadisəni ört-basdır etmək üçün L.Sardaryan Yerevanadakı Kanaz hərbi hospitalının dəri-zöhrəvi bölməsinə göndərilib. Xəstəliyə yoluxmuş hərbi qulluqçuların müalicəsi isə taborun tibb məntəqəsində təşkil edilib.

Hadisə hüquq-mühafizə orqanlarından gizlədilir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin tibb xidmətinin yarıtmaz fəaliyyəti səbəbindən hərbçilər arşında xəstələrin sayı artmaqdadır.

Düşmən ordusunun bölmələrindən birində tibb xidmət rəisi vəzifəsində xidmət edən Aşot Sarkisov son günlər əsgərlər arasında kütləvi xəstələnmə hallarının artması və tibbi ləvazimatların çatışmaması barədə hesabat yazıb. Tibb xidmətinin zabiti hesabatında son günlər bir neçə əsgərin sağlamlığında problemlərin yarandığı və konkret olaraq Hayk Danelyan adlı hərbi qulluqçunun ağır vəziyyətdə hospitala yerləşdirildiyini yazıb. Onun yazdığına görə 100 hərbi qulluqçu yüksək hərarətlə müşayiət olunan su çiçəyi xəstəliyi ilə kazarma şəraitində saxlanılır və müalicəyə göndərilmələri barədə heç bir tədbir görülmür.

Xəbərdə o da bildirilir ki, hərbi həkimin yazdığı hesabatın Ermənistan Müdafiə Nazirliyinə göndərilməsinə hərbi hissə komandiri icazə verməyib və zabitə "dilini dinc qoymağı" məsləhət görüblər.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə terror hazırlığında olan dəstə ifşa edilib



Türkiyə polisinin ölkənin Şanlıurfa vilayətinin Akçakale rayonu ərazisində keçirdiyi antiterror əməliyyatı nəticəsində terror hazırlığında olan beş şübhəli həbs olunub.

PKK-PYD terror təşkilatlarının üzvü olduqları ehtimal edilən şəxslər Türkiyəyə Suriya ərazisindən keçiblər. Bildirilir ki, terrorçulara məxsus çuvaldan avtomat silah, partlayıcı maddə, o cümlədən əl qumbaraları və digər sursat növləri aşkarlanıb.

## Pakistan Hərbi Hava Qüvvələri "JF-17 Thunder" qırıcı təyyarəsində quraşdırılan silahı sınaqdan keçirib



Pakistan Hərbi Hava Qüvvələri "JF-17 Thunder" qırıcı təyyarəsində quraşdırılan yeni silahı sınaqdan keçirib.

Bu barədə Pakistanın "The Express Tribune" qəzeti məlumat yayıb. Qeyd olunur ki, bu uğurlu sınaqdan sonra "JF-17 Thunder" gecə və gündüz yüksək dəqiqliklə müxtəlif hədəfləri nəzarətdə saxlaya biləcək. Yeni silah pakistanlı mütəxəssislər tərəfindən quraşdırılıb. "JF-17 Thunder" qırıcıları "Pakistan Aeronautical Complex" və Çinin "Chengdu Aircraft Industry Corporation" şirkətlərinin birgə layihəsidir.

## Rusiyada terror aktı hazırlayan şəxs zərərsizləşdirilib



Rusiyanın Samara vilayətində terror aktı hazırlayan şəxs zərərsizləşdirilib.

Rusiya Milli Anti-terror Komitəsinin məlumatına görə, martın 13-nə keçən gecə Rusiya Federal Təhqiqat Bürosuna Samara vilayətinin Yekaterinovka kəndində terror aktı hazırlayan silahlı şəxs barədə məlumat daxil olub. Əməliyyat zamanı beynəlxalq terror təşkilatlarından birinin üzvü olan silahlı şəxs hüquq-mühafizə orqanları əməkdaşlarına atəş açıb. O, cavab atəşi ilə zərərsizləşdirilib. Onun evindən silah-sursat aşkarlanıb.

## Türkiyədə PKK-ya məxsus sığınacaqlar məhv edilib



Türkiyənin təhlükəsizlik qüvvələrinin ölkənin Siirt bölgəsində keçirdiyi növbəti anti-terror əməliyyatı nəticəsində PKK terror təşkilatına qarşı daha bir sarsıdıcı zərbə vurulub. Əməliyyatda terrorçulara məxsus dörd sığınacaq məhv edilib. Sığınacaqlarda külli miqdarda partlayıcı, silah və sursat, terrorçuluqda istifadə olunan digər ləvazimatlar aşkar olunub.

## Tacikistan-Qırğızıstan sərhədində qarşıdurma baş verib: ölən və yaralananlar var



Ötən gecə Tacikistan-Qırğızıstan sərhədindəki iki kənd arasında baş verən qarşıdurma nəticəsində bir tacik sakin odlu silahla qətlə yetirilib, hər iki tərəfdən 20-dən çox insan yaralanıb.

İnsident Qırğızıstanın Batken vilayətinin Ak-Saya və Tacikistanın İsfarin rayonunun Tacikon kəndlərinin əhalisi arasında baş verib. Bu ərazidə hələ ki, dövlətlər arasında delimitasiya işləri aparılmadığından kəndlərin əhalisi əkin və otlaq sahələri ilə bağlı tez-tez qarşıdurma baş verir.

Xatırladırıq ki, Tacikistanla Qırğızıstan arasında dövlət sərhədi 976 kilometrdir ki, indiyədək bunun 504 kilometri delimitasiya edilib.

**AZƏRTAC-ın materialları əsasında**

# Xarici ölkələrin Azərbaycandakı hərbi attaşeləri HHQ-nin hərbi hissəsində olub

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi illik plana əsasən, xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş hərbi attaşeləri üçün Hərbi Hava Qüvvələrinin hərbi hissəsinə tanışlıq ziyarəti təşkil olunub.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müxtəlif ölkələri təmsil edən 22 nəfərdən ibarət hərbi attaşeyə əvvəlcə hərbi hissə və onun yaranma tarixi barədə ümumi brifinq təqdim edilib.



Hərbi attaşelərin ziyarəti zamanı hərbi hissədə olan əsas texniki nümunələr haqqında məlumat verildikdən sonra onlar praktiki nümayiş etdirilib.

Sonda hərbi hissə tərəfindən xarici qonaqlara Novruz bayramı münasibətilə ziyafət təşkil olunub.

## Baltik ölkələrinin aparıcı xəbər portalları Azərbaycanda keçirilən hərbi təlimlərdən yazıb

Baltikyanı ölkələrin aparıcı xəbər agentlikləri və portalları Azərbaycan Silahlı Qüvvələrinin genişmiqyaslı hərbi təlimlərindən yazıb.

AZƏRTAC xəbər verir ki, əsasən "Reuters" agentliyinə istinadla yayılan xəbərlərdə təlimlərin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hər iki ölkə liderlərinin görüşü ərəfəsində keçirilməsinin Ermənistan rəhbərliyini narahat etdiyi bildirilib.

Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğu, onun "müstəqilliyi"nin heç bir ölkə tərəfindən tanınmadığının qeyd olunduğu xəbərlərdə münaqişənin tarixi barədə oxuculara məlumat verilib.

# Musiqi müsabiqəsinin qalibləri görüşlərdən razı qaldılar

Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə keçirilən musiqi müsabiqəsinin qalibləri "N" hərbi hissəsində qonaq oldular. Qonaqlara hərbi hissənin yaranma tarixi və fəaliyyəti ilə bağlı məlumat verildi. Onlar silah, texnika, mühəndis, rabitə cihazları və avadanlıqları, səyyar təşviqat guşələri və mənəvi-psixoloji təminat vasitələri ilə əyani tanış oldular. Hərbi hissənin ərazisi, əsgər yataqxanası, idman şəhərciyi, hamam-camaşırxana və əsgər yeməkxanası ilə tanış olan qonaqlar hərbi qulluqçularla birgə nahar etdilər



Müsabiqə qalibləri Hərbi Dəniz Qüvvələrinin Mərkəzi Qərargahına da baş çəkdilər. Görüş gənclərin hərbi texnika - gəmilərlə tanışlığı ilə davam etdirildi. Hərbi Dəniz Qüvvələrinin zabiti hərbi gəminin fəaliyyət istiqaməti, şəxsi heyəti, döyüş qabiliyyəti və davamlılığı haqqında iştirakçılara ətraflı məlumat verdi. Onların sualları zabitlər tərəfindən cavablandırıldı. Həm hərbi hissənin şəxsi heyəti, həm də qonaqlar görüşdən məmnun olduğunu bildirdilər. Naftalan şəhər Uşaq Musiqi Məktəbinin direktoru Almaz Əliyeva göstərilən qonaqpərvərliyə, verilən izahatlara və hərbi hissə ilə tanışlıq üçün yaradılan şəraitə görə rəhbərliyə təşəkkürünü bildirdi.

Azərbaycan Hərb Tarixi Muzeyinə baş çəkən qonaqlar hərb tariximiz haqqında da geniş məlumatlar əldə etdilər. Muzey bələdçiləri iştirakçılara muzeyin yaranma tarixi, fəaliyyəti barədə ətraflı məlumatlar çatdırdı. Qeyd edildi ki, muzey 1992-ci ildə yaradılıb. Muzeyin ilk zalı qədim, erkən, orta əsrlər dövrü zalıdır və buradakı eksponatlar ibtidai icma quruluşunun bütün mərhələlərini əhatə edir. Naxçıvandakı Oğlanqalanın maketini, Atropatena dövlətinin başçısı Atropatın heykəlini qonaqlar maraqla seyr etdilər. Xanlıqlar dövrünə aid zalda isə Azərbaycanda xanlıqların yaranması, onların qoşun növləri haqqında məlumat verildi. Tarixin dərin və silinməz izlərini özündə əks etdirən muzeydə olduqca qədim və qiymətli tarixi əsərlər saxlanıldığı bildirildi. İştirakçılar muzeydə Qərbi Azərbaycana həsr edilən stendlə də yaxından tanış oldular. Muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə gənclərə Kəlbəcər və aprel döyüşləri barədə geniş məlumat verdi, xalqımızın igid oğullarının qəhrəmanlıq nümunələrindən söz açaraq onlara gələcəkdə də vətənpərvər olmağı arzuladı. Qonaqlar tariximizin şanlı səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə bağlı eksponatlarla da tanış oldular. Muzeydə xüsusi maraq doğuran zallardan biri də ümummilli lider Heydər Əliyev və ordu quruculuğuna həsr olunub. Burada dünya şöhrətli siyasi xadim, ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən də ətraflı bəhs edilir, ona məxsus əşyalar, hərbi geyim nümunəsi nümayiş olunur. Ziyarətçilər, həmçinin iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun, Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun idarə etdiyi tankın dublikatlarına baxdılar, həyətdə sərgilənən texnikalarla da yaxından tanış oldular.

Daha sonra Şəxsi Heyət Baş İdarəsinin zabiti polkovnik Etibar Əliyev bildirdi ki, tədbirin keçirilməsində məqsəd mədəniyyətin və incəsənətin təbliği, gənclərin hərbi vətənpərvərlik ruhunda formalaşması, yaradıcılıq bacarıqlarının inkişaf etdirilməsi, eləcə də hərbi hissələrdə bədii özfəaliyyət kollektivlərinin yaradılması və hərbi qulluqçuların asudə vaxtlarının mədəni təşkil olunmasıdır. Bu cür tədbirlərin davam etdirilməsinin vacibliyi də qonaqlara çatdırıldı.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# Çoxməqsədli "Bell-412" helikopteri



*Çoxməqsədli "Bell-412" helikopterini Amerikanın Bell Helicopter Textron firması hazırlayıb. İlk uçuşu 1979-cu ildə həyata keçirilib, 1981-ci ildə seriyalarla istehsal olunub.*

Heyəti iki pilotdan ibarətdir. Göyərtəsinə 14 nəfər sərnişin, 1 nəfər müşayiətçi və 6 ədəd xərək yerləşdirilib. Helikopterlə 1814 kiloqrama qədər yük qaldırmaq olar. Çoxməqsədli "Bell-412" helikopterinin uzunluğu 17,12 metr, fyüzelajının uzunluğu 12,7 metr, eni 2,84 metr, daşıyıcı vintinin diametri 14,02 metr, rul vintinin diametri 2,62 metr, hündürlüyü 4,57 metrdir. Helikopterin boş halda çəkisi 3079 kiloqramdır. Maksimal uçuş çəkisi 5397 kiloqrama qədərdir. Yanacaq çənlərinin həcmi 1249 litrdir (+2x76 litr və ya 310,5 PTB). Mühərriki 1x1800 at gücündədir (1x1342 kVt (uçuş).

"Bell-412" helikopterinin qəbuledilən maksimal uçuş sürəti saatda 259 kilometr, yerdə maksimal sürəti saatda 226 kilometr, 1220 metrlik hündürlükdə isə saatda 230 kilometrdir. Uçuş uzaqlığı 744 kilometrə qədərdir. Uçuşun davamiyyəti 3 saat 42 dəqiqədir. Yerin effektliyinə əsasən onun statistik uçuş hündürlüyü 3110 metrdir. Baza modeli "Bell-212"-dir. Hazırda helikopterin bir çox modifikasiyası da mövcuddur.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 248
Nüsxə 3950